*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 108-115*

https://doi.org/10.62837/2025.6.108

**DILARƏ RÜSTƏM QIZI QULIYEVA**
*Sumqayıt, Sumqayıt Dövlət Universiteti*
dilarerustam@gmail.com

# PSİXOLOJİ VƏ FİZİOLOJİ AMİLLƏRİN NİTQƏ TƏSİRİ

***Açar sözlər:*** *nitq, ünsiyyət, psixoloji amillər, fizioloji amillər, sosial amillər*

Nitq insanın dil vasitəsilə həyata keçirilən ən vacib və təbii kommunikasiya prosesidir. Nitq insanın özünü başqalarına ifadə etməsi, hisslərini və fikirlərini paylaşması üçün ən vacib vasitədir. İnsanlar arasında əlaqənin qurulmasında dilin və nitqin rolu təkcə gündəlik ünsiyyəti təmin etməklə kifayətlənmir, eyni zamanda onların psixoloji vəziyyətlərini, düşüncə və emosiyalarını ifadə etməyə də imkan verir. Lakin, hər bir fərdin nitqi eyni şəkildə inkişaf etmir və müxtəlif amillər bu inkişafı müəyyən edir. Nitqin inkişafı və istifadə edilən dil formaları birbaşa olaraq psixoloji, fizioloji, sosial və mədəni amillərlə əlaqəlidir. Bu amillər uşaqlıq dövründən başlayaraq, fərdin həyatının müxtəlif dövrlərində nitq bacarıqlarına təsir göstərir. Psixoloji və fizioloji amillərin nitqə təsirini, nitq prosesini necə formalaşdırdığını, onların qarşılıqlı əlaqəsini və necə bir-birini tamamladığını ünsiyyət prosesində, fikir mübadiləsində aydın görmək olur. Nitqin inkişafı və istifadəsi həm fizioloji dəyişikliklərlə, həm də psixoloji vəziyyətlə bağlıdır. Belə ki, fiziki sağlamlıq və psixoloji vəziyyət nitqin keyfiyyətinə və inkişafına birbaşa təsir edir. Nitqə təsir edən amillərin başa düşülməsi, dilin inkişafı və kommunikasiya prosesini anlamaq üçün vacibdir. Nitqin inkişafını və keyfiyyətini anlamaq, həm də bu inkişafı dəstəkləyən effektiv üsulların tətbiqinə imkan yaradır. Bu amillər arasında həm daxili faktorlar (genetik, bioloji) həm də xarici faktorlar (sosial mühit, təhsil və mədəniyyət) mühüm rol oynayır.

Psixoloji amillər fərdin daxili vəziyyətinə, düşüncə proseslərinə və emosional halına bağlı olaraq, nitqin quruluşu və funksionallığına təsir göstərir. Psixoloji amillər insanların dildən istifadə vərdişlərini, söz ehtiyatını, nitq sürətini. tonunu və ahəngdarlığını dəyişdirə bilər.

*Emosional vəziyyətlərin (qəzəb, kədər, xoşbəxtlik, qorxu, ikrah, təəccüb) üzərində aparılan araşdırma müəyyən etdi ki, nitqin vəziyyəti natiqin emosional vəziyyətindən asılıdır. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, nitqin ən aşağı aşağı həddi cansıxıcılıq və depressiya üçün, ən yüksək həddi isə güclü emosional təcrübə zamanı əzələ gərginliyinin artması nəticəsində yaranan xoşbəxtlik və narahatlıq üçün xarakterikdir; depressiv nitq məhdud səs diapazonuna malikdir, xoşbəxt nitq isə əksinədir* (5. s.44).

Emosiyalar nitq istifadə olunduğu zamanın və məkanın dəyişməsi ilə, nitq söyləyənin psixoloji durumu ilə, qarşı tərəfə münasibəti ilə bağlıdır. Fərqli emosional

vəziyyətlər şəxsin danışıq üslubunu və nitqini əhəmiyyətli dərəcədə dəyişdirə bilər. Belə ki, xoş bir əhval-ruhiyyə ilə, sevinclə danışan şəxs daha canlı, yüksək tonlu və sürətli nitqə malik ola bilər, kədərli və ya narahat olduğunda isə nitq yavaşlayır, tonda azalma olur və nitqin ardıcılığı pozula bilir. Bu dəyişikliklər beyindəki emosional mərkəzlər və dil mərkəzlərinin qarşılıqlı əlaqəsi nəticəsində baş verir. Məsələn; Əşrəf gülümsündü: - *Bəs indi mən harada ov edim? Görürəm bunların hamısı sizindir. Yəqin Kürdən də balıq tutmağa qoymayacaqsan* (4. s.121). – Zarafatyana deyilən nitq aydınlığı, dəqiq, səlis ifadələri ilə fərqlənir.

- *Niyə öyrətmirəm,* ***qoy*** *gəlsinlər. Mən sizə hər şeyi, xəritəni də, şəkil çəkməyi də, şəhərlərin adını da, hesabı da öyrədəcəyəm. Ancaq gəlin.* ***Elə*** *otağın birini boşaldıb sinif edərik. Özümüzün məktəbimiz olar. Düz demirəm**mi*** (4. s.126)? – Həyəcanlı, sevinc dolu hisslə deyilən nitq əmr, sual ədatları ilə seçilir.

- *Yox... Dayan, dayan, ayaq izi var. Vay sizin... Özü də indicə aparıblar. Yəqin balıq düşübmüş* (4. s.42). – Obrazın narahatlığı ntqinin kəsilməsi, sözlərin təkrarı ilə özünü göstərir.

*Nələr oxumaq olardı şəkillərdən... Tanımadığınız, güman ki, heç vaxt tanımayacağınız bir insanın şəklinə baxaraq onun həyatını oxumağa çalışmısınızmı heç? Nə qərib duyğular, nə yurdsuz düşüncələr doğurur bu mənzərə...* (2. s.107) Təəssüf, kədər ifadə edən nitq fikrin natamamlığı, ritorik sualları ilə diqqəti çəkir.

Stress insanın nitqinə həm müsbət, həm də mənfi təsir göstərə bilər. Ağır stress vəziyyətində, insanın düşüncələri qarışır, dil sürətli və qeyri-səlis olur. Stressli vəziyyətlərdə dil pozuntuları meydana gələ bilər: sözlərin unudulması, danışığın kəsilməsi, cümlələrin və ifadələrin tamamlanmaması. Ancaq bəzi insanlar stress anlarında daha aydın və təsirli nitq inkişaf etdirə bilərlər, çünki bu vəziyyət onları daha diqqətli və məqsədyönlü edir. Məsələn;

- *Sən digərlərini on saniyədə xoşbəxt etməkdən danışırsan... Eh... Bəzən heç kəsi xoşbəxt etmək istəmirsən... Bəzən isə istəsən də... Nə bilim... Bilirsən, bizim sıxıntımız nədir? Çox vaxt danışmağa söz tapa bilmirik. Bütün ailə bir yerə toplaşanda da səssizlik çökür* (3. s.142). – Gərgin, əsəbi insanın cümlələri arasındakı əlaqəsizlik, fikrini toplayıb çatdıra bilməmək bu nitqdə bariz şəkildə görünür.

- *Amma psixoloqlar belə düşünmürlər. İncəsənətlə məşğul olmağın, şəkil çəkməyin insanın ruhunu aramlaşdırdığını deyirlər. Həkimlərin dediyinə görə, daun sindromundan əziyyət çəkən amerikalı yaradıcılıqla məşğul olduğuna görə altmış bir il yaşayıb* (3. s.167). – Tərəfdaşın sözlərindən əsəbiləşən insan konkret faktlara əsaslanaraq fikrini daha dəqiq çatdırmağa çalışır.

Düşüncə və dil arasında sıx bir əlaqə vardır. Uşaqların dil inkişafını, onların kognitiv inkişafları ilə əlaqələndirilir. Nitq uşağın düşüncə proseslərinin təşkilində əhəmiyyətli rol oynayır və dilin inkişafı düşüncənin mürəkkəbləşməsinə kömək edir. Məsələn, abstrakt düşüncə və ya planlaşdırma bacarığı inkişaf etdikcə, uşaqların nitqində də mürəkkəb cümlələr və daha geniş söz ehtiyatı meydana gəlir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 108-115*

*Uşaqlıqda psixi inkişafın vəziyyəti həmişə aydın olmasa da, bir yetkinin inkişafına çox əhəmiyyətli töhfə verir. Məktəbəqədər yaş bir çox psixi funksiyaların inkişafının bünövrəsidir. Bu baxımdan, məktəbəqədər uşağın inkişafını şərtləndirən amillərin və şərtlərin öyrənilməsi müasir tədqiqatların əsas istiqamətidir* (7. s.3)

Cəmiyyətin üzvü kimi insanın şəxsiyyəti maddi nemətlərin istehsalı və istehlakı prosesində inkişaf edən müxtəlif münasibətlərin təsir dairəsindədir. Şəxsiyyətin formalaşması prosesi həm siyasi münasibətlər sferasının, həm də ideologiyanın təsiri altında baş verir. İdeologiya cəmiyyət haqqında təsəvvürlər sistemi kimi şəxsiyyətə böyük təsir göstərir, onun psixologiyasının, dünyagörüşünün, fərdi və sosial münasibətlərinin məzmununu daha çox formalaşdırır.

İnsanların şəxsi xüsusiyyətləri, xarakterləri onların nitqində özünü büruzə verir. Qərb psixoloqu Karl Yunq insanları xarakterlərinə görə 2 qrupa ayırır: ekstravertlər və introvertlər. Ekstravertlər insanlarla ünsiyyətdən, yeni münasibətlərdən enerji alır, diqqət mərkəzində olmağı xoşlayır, ictimai çıxışlara can atır, insanların çox olduğu məclislərdə özlərini rahat hiss edirlər. İntrovertlər isə əksinə, əlaqələrini məhdudlaşdırır, özlərinə qapanırlar. Onların enerjilərinin bərpası üçün sakitliyə, təkliyə ehtiyacları var. Onlar utancaq, qapalı olur, real ünsiyyətdən çəkinirlər.

*Müasir tədqiqatlara görə, sosial-iqtisadi bərabərsizlik müəyyən psixoloji bərabərsizliyə uyğun gəlir. Sosial-iqtisadi statusu yüksək olan insanlarda subyektiv nəzarət, özünə hörmət, sosial dəstək orta səviyyələri daha yüksək, bədbinlik və ümumi narahatlıq orta səviyyələri daha aşağıdır* (6. s.4).

İnsan psixologiyasına onun aid olduğu sosial qrupdakı insanların münasibətləri də təsir edir. Qarşılıqlı təsir və ünsiyyət prosesində fərdlər bir-birinə təsir edir, nəticədə cəmiyyətə, əməyə, insanlara, öz keyfiyyətlərinə baxışlar, sosial münasibətlər və digər növ münasibətlər formalaşır. Bu zaman insan müəyyən səlahiyyət qazanır, müəyyən mövqe tutur, müəyyən rollar oynayır.

*Zehni proseslər və dil inkişafı arasındakı mürəkkəb əlaqəni dərindən dərk etməyə kömək etməklə, cəmiyyət hər bir uşağın akademik uğuru üçün əsas olan effektiv ünsiyyət bacarıqlarının inkişafını təşviq etməklə, linqvistik cəhətdən uğur qazanmaq imkanının olmasını təmin edə bilər* (8. s.104).

Fizioloji amillər nitqin formalaşmasında və inkişafında əsas rol oynayan amillərdəndir. Nitq prosesinin fizioloji əsasları beyindəki və sinir sistemindəki funksiyalardan başlayaraq, ağız, dil və səs tellərinin işləməsi ilə tamamlanır.

Nitq aktının əsas, aparıcı rolu beynin fəaliyyətinə aid olan mürəkkəb orqanlar sistemi tərəfindən həyata keçirilir. Bu orqanların, mərkəzlərin düzgün işləməsi aydın və anlaşılan nitqin yaranmasına zəmin yaradır. Hər hansı bir zədə və ya xəstəlik nəticəsində bu mərkəzlərdəki funksiyaların pozulması dil pozuntularına, düzgün olmayan nitqə səbəb ola bilər.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 108-115*

*Nitq beynin müxtəlif hissələrini əhatə edən sistemli bir prosesdir. Səsli nitqin qavranılmasında mühüm rolu elementar söz kodlarını - fonemləri qəbul edən sol yarımkürənin eşitmə qabığının ikinci dərəcəli bölmələri oynayır. Bu strukturlar zədələndikdə fonemlərin fərqlənməsi çətinlik yaranır; sözlərin dəqiq mənasını başa düşmək qeyri-mümkün olur* (9. s.9).

Beyində yerləşən mərkəzi nitq aparatı yüksək sinir fəaliyyətinin digər təzahürləri kimi, reflekslər əsasında inkişaf edir. Nitq refleksləri beynin müxtəlif hissələrinin fəaliyyətilə əlaqələndirilir. Periferik nitq aparatı üç bölmədən: tənəffüs; səs (vokal); artikulyasiyadan (səs çıxaran) ibarətdir.

Tənəffüs bölməsinə ağciyərlər, bronxlar və nəfəs borusu daxildir. Səs telləri və ağız quruluşu, danışıq prosesində əsas əzələlərdən biridir. Ağız üzvlərinin və səs tellərinin düzgün işləməsi nitqin aydın və düzgün olması üçün vacibdir. Nitqin istehsalı tənəffüslə sıx bağlıdır. Nitq hava axını zamanı formalaşır. Hava axını eyni vaxtda həm səs əmələ gətirmə, həm də artikulyasiya funksiyalarını yerinə yetirir.

Eşitmə problemi olan insanlar, nitq inkişafında çətinliklər çəkə bilər. Belə ki, eşitmə qüsurları, xüsusən uşaqlarda nitqin düzgün inkişaf etməməsinə və nitq çətinliklərinin yaranmasına səbəb ola bilər. Eşitmə pozuntuları, həmçinin sinir və ağır travmalar nəticəsində də yarana bilər və uşaqların söz ehtiyatını, düşüncə tərzini və sosial kommunikasiya bacarıqlarını zəiflədə bilər.

Neyroloji xəstəliklər, inkişaf geriliyi, sinir sistemindəki dəyişikliklərə səbəb olaraq nitqdə problemlər yaradır. Bu xəstəliklər zamanı səsin keyfiyyəti, artikulasiya və sürət pozulur. Beyin funksiyalarının zəifləməsi nitqin keyfiyyətinə mənfi yöndə təsir edə bilər.

Psixoloji və fizioloji amillər bir-biri ilə sıx bağlıdır və qarşılıqlı olaraq nitqə təsir göstərir. Beynin dil mərkəzlərindəki bioloji dəyişikliklər, şəxsin emosional vəziyyətinə və psixoloji sağlamlığına təsir edə bilər. Eyni zamanda, fiziki sağlamlıq da psixoloji vəziyyəti dəyişdirərək, nitqin sürətinə, anlaşıqlılığına və keyfiyyətinə təsir edir. Məsələn, həyəcan, stress və narahatlıq kimi psixoloji vəziyyətlər, bədənin fiziki vəziyyətini (səs tellərinin gərilməsi, ağız quruluğu və s.) dəyişdirə bilər. Bu, nitqin keyfiyyətinə mənfi təsir göstərərək şəxsin tam potensialını ortaya qoymasına mane ola bilər. Eyni zamanda, ciddi fiziki problemlər, məsələn, eşitmə və ya danışıqla bağlı problemlər, psixoloji narahatlıq və özgüvən problemlərinə yol aça bilər. Məsələn, nitq qüsuru, kəkələməsi olan bir insan və ya qarşı tərəfin dediklərini tam anlamayan biri nitqini istədiyi kimi qurub özünü ifadə edə bilmirsə, müəyyən müddət sonra həmin şəxs insanlar qarşısında danışmaqdan çəkinir, ya da özünə qapanır.

Sosial amillər fərdin dilinin inkişafını formalaşdıran və müxtəlif çevrələrdən alınan təcrübələrlə əlaqəli olan xarici faktorları əhatə edir. Bu amillər, insanın sosial mühitlə əlaqəsi və tələb olunan ünsiyyət bacarıqları ilə bağlıdır.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2025
Səh. 108-115

Ailə uşağın nitq inkişafına təsir edən ən birinci sosial faktordur. Ailədəki kommunikasiya üslubunun uşağın dil inkişafına təsiri çox böyükdür. Valideynlərin nitqi, ünsiyyət bacarıqları və onların uşaqlarla olan dialoqları uşağın nitqində əhəmiyyətli dəyişikliklərə səbəb ola bilər. Sosial mühitin zənginliyi, uşaqların daha çox söz ehtiyatı və ünsiyyətqurma və özünüifadə etmə bacarıqlarını formalaşdıra bilər. Ancaq bir ailədə uşaqla ünsiyyət yoxdursa, şiddət, qorxu varsa, orada normal uşaq nitqindən, onun inkişafından danışmaq da qeyri-mümkündür. Bu cür mühitdə böyüyən uşaqlar ya özlərinə qapalı olur, ya hər zaman aqressiya nümayiş etdirir, ya da ümumiyyətlə, nitq pozğunluğu, ünsiyyətsizliklə özlərini göstərirlər.

Təhsil mühiti, xüsusilə məktəbəqədər təhsil dövrün uşaqların nitq bacarıqlarının inkişafı üçün vacibdir. Müəllimlərin istifadə etdiyi təlim metodları, oxuma, yazma və dinləmə tapşırıqları uşaqların nitqinin inkişafına müsbət təsir edir. Həmçinin, məktəbdəki interaktiv mühit, müxtəlif oyunlu tapşırıqlar uşaqlara sosial bacarıqları inkişaf etdirmək və nitqi gücləndirmək üçün əhəmiyyətli imkanlar yaradır. Bu, onların növbəti təhsil pillələrində özlərini daha yaxşı şəkildə təqdim etmələri üçün onlara bir stimul qazandırır.

Mədəniyyət dilin istifadəsində əhəmiyyətli rol oynayır. Hər bir mədəniyyətin özünəməxsus dil qaydaları və nitq ənənələri vardır. İnsanlar yaşadıqları mədəni mühitə uyğun olaraq, dilə spesifik özəlliklər və struktur qatırlar. Belə ki, insanlar mənsub olduqları sferaya, təbəqəyə, auditoriyaya uyğun üslubda danışmağa, ünsiyyət qurmağa, anlaşılmağa çalışdıqları üçün daha uyğun dil vasitələrindən, üslubdan istifadə edirlər.

Qeyd olunan amillərin əskikliyi nitq üçün vacib olan funksiyaların yerinə yetirilməsində maneə yaradır.

1. Nitqin kommunikativ funksiyası dildən istifadə edən insanlar arasında ünsiyyəti təmin edir. Dil işarələr sistemidir, insanlar arasında ünsiyyətin həyata keçirildiyi bir vasitədir. Nitq ünsiyyət prosesidir, insanlar arasında ünsiyyət məqsədi ilə yaranır.

2. Nitqin tənzimləyici funksiyası zehində həyata keçirilir. İnsan öz nitqini və davranışını tənzimləyir: nəyi, harada, kimə, necə deyəcəyini müəyyənləşdirir, planlaşdırır.

3. Nitqin proqramlaşdırma funksiyası sxemlərinin, cümlələrin qrammatik strukturlarının qurulmasında, fikirdən zahirə, genişləndirilmiş nitqə keçiddə istifadə olunur. Bu proses daxili nitqin köməyi ilə həyata keçirilən daxili proqramlaşdırmaya əsaslanır.

Nitqin normal inkişafı uşaqlıq dövründən, ilk kəlimələri öyrənib danışmağa başladığı dövrdən başlayır. Uşağın dili mənimsəməsi kortəbii, təbii və onun heç bir görünən səyi olmadan baş verir. Uşaqlarda dil və nitqin inkişafının xüsusiyyətləri mərkəzi sinir sisteminin fizioloji yetkinlik prosesləri və onun müəyyən plastikliyi ilə əlaqələndirilir. Nitqin mənimsənilməsini təmin edən psixofizioloji sistemlərin normal

formalaşması onların nitq siqnalları ilə vaxtında stimullaşdırılmasını tələb edir. Bu cür stimullaşdırma qeyri-kafi olarsa (məsələn, eşitmə pozğunluğu səbəbindən), nitqin mənimsənilməsi prosesləri ləngiyər. Nitqin "zəhmət çəkmədən" əldə edildiyi yaş dövrü həssas inkişaf dövrü adlanır, çünki bu müddətdən sonra nitq ünsiyyəti təcrübəsi olmayan uşaq öyrənə bilmir.

## ƏDƏBİYYAT

1. Kərimov Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı, 2009, 323 s
2. Rzazadə Əli. Onun kekayəsi. Hekayə, esse və şeirlər. Mücrü Nəşriyyatı, 2022, 176 s.
3. Rövşən Abdullaoğlu. Bu şəhərdə kimsə yoxdur. Bakı, "Qədim Qala" nəşriyyatı, 2024, 336 s.
4. Şıxlı, İ. Dəli Kür. Bakı, Yazıçı, 1983, 435 s.
5. Бурыгина Н. А. Факторы, влияющие на речевой аппарат и речь человека. Вестник МГЛУ. Вып. 15 (754) /2016
6. Вассерман Л.И., Трифонова Е.А. Обозрение психиатрии и медицинской психологии, Социально-психологические факторы в формировании сферы здоровья личности № 3, 2012
7. Груздева О.В. Социально-психологические факторы и условия, детерминирующие процесс речевого развития соматически больных детей дошкольного возраста (на примере часто болеющих детей и детей с нарушениями опорно-двигательного аппарата). Автореферат диссертации на соискание ученой степени кандидата психологических наук, Казань, 2003
8. Кодирова Ф.У., Рискулова А.У. Роль психических процессов в развитии речи ребенка: выводы из научных исследований. Образование наука и инновационные идеи в мире
9. Купцова А.М., Хабибрахманов И.И., Зиятдинова Н.И., Зефиров Т.Л. Физиология речи: учебно-методическое пособие. Казань, Изд-во «Вестфалика», 2019, 43 с.

## XÜLASƏ

Nitqə təsir edən amillər çoxşaxəlidir və bir-biri ilə əlaqəli müxtəlif xüsusiyyətlərə malikdir. Hər bir faktor nitqin inkişafına fərqli istiqamətlərdə təsir edə bilər. Bu amillərin başında fizioloji, psixoloji və sosial amillər dayanır. Psixoloji və fizioloji amillərin nitqə təsiri, nitqin inkişafını və istifadəni formalaşdıran əsas faktorlar arasında mühüm yer tutur. Uşaqlıqdan tutmuş yetkinlik dövrünə qədər bu amillər bir-birini tamamlayaraq, insanların dil qabiliyyətlərini müəyyən edir. Nitq inkişafının düzgün və sağlam olması üçün bu amillərin qarşılıqlı təsirini düzgün anlamaq və hər iki amilin tarazlığını qorumaq vacibdir. Çünki nitq qüsuru, eşitmə

problemi olan insan fikrini çatdıra bilmədiyi zaman psixoloji olaraq özünü yetərsiz, gərəksiz hesab edərək əzilir. Müəyyən emosiyalarını idarə edə bilməyən, stress, narahatlıq, həyəcan altında çarəsiz qalan insan da fikrini tam çatdıra bilmədiyi zaman özünü gücsüz, zəif hiss edir. Ailə, bağça və məktəb həyatının hər hansı birində uğursuzluqla qarşılaşan insan da cəmiyyətdə öz yerini tapa bilmir. Ona görə də sağlam fizioloji, normal psixoloji, müsbət sosial amillərin hökm sürdüyü mühit sağlam insan, sağlam şəxsiyyət və sağlam nitq yaradır.

**РЕЗЮМЕ**

**Влияние психологических и физиологических факторов на речь**

**Диляра Рустамовна Гулиева**

***Ключевые слова:*** *речь, общение, психологические факторы, физиологические факторы, социальные факторы*

Факторы, влияющие на речь, многогранны и имеют различные взаимосвязанные характеристики. Каждый фактор может влиять на развитие речи в разных направлениях. К ним относятся физиологические, психологические и социальные факторы. Влияние психологических и физиологических факторов на речь занимает важное место среди основных факторов, формирующих развитие и использование речи. С детства и до зрелого возраста эти факторы дополняют друг друга и определяют языковые способности человека. Для правильного и здорового развития речи важно правильно понимать взаимодействие этих факторов и поддерживать баланс обоих факторов. Ведь когда человек с дефектом речи или слуха не может выразить свои мысли, он психологически подавлен, считая себя несостоятельным и ненужным. Человек, не способный контролировать определенные эмоции, беспомощный в стрессе, тревоге и волнении, также чувствует себя бессильным и слабым, когда не может полностью выразить свои мысли. Человек, сталкивающийся с неудачами в любой сфере жизни – в семье, детском саду или школе – не может найти свое место в обществе. Поэтому, среда, в которой доминируют здоровая физиология, нормальная психология и позитивные социальные факторы, формирует здорового человека, здоровую личность и здоровую речь.

**SUMMARY**

**The influence of psychological and physiological factors on speech**

**Dilara Rustam Guliyeva**

***Keywords:*** *speech, communication, psychological factors, physiological factors, social factors*

The factors that influence speech are multifaceted and have various interrelated characteristics. Each factor can influence speech development in

different directions. These include physiological, psychological and social factors. The influence of psychological and physiological factors on speech occupies an important place among the main factors that shape the development and use of speech. From childhood to adulthood, these factors complement each other and determine a person's language abilities. For the correct and healthy development of speech, it is important to correctly understand the interaction of these factors and maintain a balance of both factors. After all, when a person with a speech or hearing defect cannot express his thoughts, he is psychologically depressed, considering himself incompetent and unnecessary. A person who is unable to control certain emotions, helpless in stress, anxiety and excitement, also feels powerless and weak when he cannot fully express his thoughts. A person who faces failures in any area of life - in the family, kindergarten or school - cannot find his place in society. Therefore, an environment in which healthy physiology, normal psychology and positive social factors dominate forms a healthy person, a healthy personality and healthy speech.

**Rəyçi: Dosent Böyükxanım Eminli**